KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (14) 2022

JURNALİSTİKA

Rəhilə Rəsul Kəsəmənli
Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsi
Yeni media və kommunikasiya nəzəriyyəsi kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

# ÖMƏR FAIQ NEMANZADƏ PUBLİSİSTİKASINDA MAARİFÇİLİK MƏSƏLƏLƏRİ

*UDC 070*

*Ömər Faiq Nemanzadə Azərbaycanda milli mətbuatın və xalq maarifinin inkişafında mühüm xidmətləri olan ziyalıların görkəmli nümayəndələrindən biridir. Qətiyyət, cəsarət, geniş fəaliyyət göstərmək istəyi onun mövqeyinin əsas istiqamətləri idi. O, yaradıcılığında doqmatik dünyagörüşünü ictimai inkişafa maneə hesab edərək ictimai şüurdan və elmi müstəvidən çıxış edir. Onun arzuladığı cəmiyyət demokratik respublika prinsiplərinə tam uyğun idi.*

Rahila Rasul Kesemenli

## Educational Aspects of Omar Faig Nemanzade's Journalism

*Omar Faig Nemanzade is one of the outstanding representatives of the intelligentsia, who contributed to the development of the national press and public education in Azerbaijan. In his educational position, there is determination, courage, a desire to carry out extensive activities. In his work, he relies on social consciousness and science, he considers the dogmatic worldview as an obstacle to public education. The society he dreamed of was fully consistent with the principles of a democratic republic.*

Рахиля Расул Кесеменли

## Вопросы просвещения в публицистике Омара Фаига Неманзаде

*Омар Фаиг Неманзаде является одним из выдающихся представителей интеллигенции, внесшим весомый вклад в развитие национальной прессы, народного просвещения Азербайджана. Решимость, мужество, стремление к осуществлению обширной деятельности – такова была его просветительская позиция. В своем творчестве он исходит из общественного сознания и научного уровня, считая догматическое мировоззрение препятствием общественному развитию. Общество, о котором он мечтал, полностью соответствовало принципам демократической республики.*

**Giriş**

Bəzən dahilərin yaradıcılığına dönə-dönə qayıdış bizim özümüz üçün zəruri ehtiyacdan irəli gəlir. Ömər Faiq dərin fəlsəfi-estetik məzmuna malik yaradıcılığı ilə mətbuat tariximizdə yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Onun çoxşaxəli irsi ictimai-siyasi baxımdan işıqlandırılsa da, sənəti həmişə yeni söz, yeni fikir deməyə imkan verir.

Onun publisistikasına xas olan ən ümdə xüsusiyyətlərdən biri xalqın maariflənməsi ilə bağlı məqalələri idi. Bu publisistik məqalələr təkcə ədəbi baxımdan deyil, həm də elmi baxımdan aktual və əhəmiyyətlidir.

Ömər Faiq Nemanzadə Azərbaycan milli mətbuatının, xalq maarifinin və ictimai şüurun inkişafına təsir göstərən ziyalılardan biri olmuşdur. Onun zəngin publisistik irsi xalqımızın mübarizə tarixini, ictimai-siyasi inkişaf tarixini özündə əks etdirən qiymətli bir xəzinədir.

Ümumiyyətlə, Ömər Faiqin publisist yaradıcılığını problemlər üzrə qruplaşdırsaq görərik ki, o, XX əsr Azərbaycan ictimai fikrinin məşğul olduğu əksər məsələlərə öz münasibətini bildirib. Görkəmli tədqiqatçı Şamil Qurbanovun dediyi kimi, "o hansı məsələlərə toxunurdu?" sualına cavab vermək "hansı məsələlərə toxunmurdu» sualına cavab verməkdən çətindir" [1, s.51].

Elə bir vacib ictimai, siyasi və milli məsələ yox idi ki, Ömər Faiq ona öz fəal münasibətini bildirməmiş olsun. Onun cəsarətini, xarakter bütövlüyünü yazılarının ciddiliyindən, məsələlərin qoyuluşu və həllində irəli sürdüyü fikirlərdən də hiss etmək mümkündür.

Ömər Faiq fəaliyyətinin ılk günlərindən etibarən maarifı, xalqın savadlanmasını hər şeydən vacib sayırdı. Müəllimin, yeni məktəbin, yeni tələblərə uyğun tədrisin, bir sözlə, maarifın əhəmiyyətini yüksək qiymətləndirir, onları siyasi, milli tələblərlə bağlamağı bacarırdı.

Ədəbi-ictimai prosesə Tiflisdə nəşr olunan "Şərqi-Rus" qəzeti vasitəsilə aktiv şəkildə qoşulan Ömər Nemanzadə dövri mətbuatda tez-tez çıxış edir, Azərbaycan həqiqətlərinin təsvir və təhlilinə publisistikasında geniş yer ayırırdı.

Ömər Nemanzadə 1904-1905-ci illərdə "Şərqi-Rus" və "Həyat"da yazdığı yazılarında əsasən maarifçi mövqedən çıxış edirdi. Lakin bu maarifçi mövqeyin özündə bir cəsarət, bir mübarizlik, geniş fəaliyyət göstərmək, faydalı iş görmək əzmi də vardı. Bütün bu cəhətlər də onun həmin mətbuat orqanlarında dərc etdirdiyi bütün məqalə, şer və hekayələrində hiss olunur.

Firidun bəy Köçərli 1903-cü ildə "Şərqi-Rus"a həsr etdiyi məqalədə Ömər Faiqin qəzetdə dərc olunan yazılarına xüsusi diqqət yetirərək onun "Dərdimiz və dərmanımız" ümumi sərlövhəsi altında gedən məqalələrinin çox kəskinliklə, cəsarətlə yazıldığını göstərirdi.

Bu məqalələrdə Ömər Faiq maarifçilikdən əlavə şəxsiyyət azadlığı, söz azadlığı məsələlərini qoyur, elmin, yeniliyin əhəmiyyətindən danışır, "hər millət mərifət ilə yaşar, cəhalət ilə yox olar" deyirdi [2].

Söz, mətbuat, vicdan, şəxsiyyət və mülkiyyət azadlıqlarının verilməsini yüksək qiymətləndirən Ömər Faiq Nemanzadə ondan sui-istifadə edənlərin, verilmiş imkanlardan düzgün yararlanmayanların ictimaiyyətin deyil, yalnız şəxsi maraqlarını güdənlərin mövqeyini tənqid edir, bu və bu kimi halların elm, maarif, mədəniyyət və





mətbuatımıza ciddi ziyan vurduğunu nəzərə çatdırdı. Biitövlükdə maarif, elm, mətbuat və mədəniyyətin ictimai-siyasi maraqlara tabe tutulmasını mühüm vəzifə bilən Ömər Faiq Nemanzadə bu işin arxasında müstəmləkəçilikdən qurtuluşu, dövlət müstəqiliiyinin əldə edilməsini görür, hər bir vətəndaşın bu istiqamətdə fəallıq göstərməsini arzulayırdı.

Ömər Faiqin arzu etdiyi bu cəmiyyət demokratik respublika prinsiplərinə tam uyğun gəlir. Burada söz, vicdan, mətbuat, ittifaq azadlığı olmalı, camaat tərəfindən seçilmiş və xalqın öz içərisindən çıxmış vəkillər millət məclisi yaratmalı, bu məclis isə dövləti idarə etməlidir.

XIX əsrin sonu XX əsrin əvvəllərində kapitalizmin sürətli inkişaf məcrasında yaradıcılığa başlayan bir sıra ziyalılar kimi Ömər Faiq Nemanzadə də dövrün yeni çağırışlarına cavab verməyə çalışır, "Xalq səlamətliyi, vətən bütövlüyü, dövlət intizamı" fikri ilə yaşayır, əməli və elmi-nəzəri axtarışlarını bu ideyaya tabe tutur, çarizmin müstəqil monarxiyasından qurtuluş arzusunu məqsəd və vəzifə bilirdi. XIX əsrin əvvəllərində güclənən ictimai-siyasi proseslər dalğasında mitinq, tətil, nümayişlərin artması, etiraz bəyanatlarının yayılması və çoxalması buna ciddi əsas verir, ölkədə, sosial həyatda və şüurda islahatların reformaların aparılmasına meydan açırdı.

Monarxiyanın yıxılacağına inam yaradan azadlıq ideyası artıq hər bölgənin, o cümlədən Qafqazın, Azərbaycanın taleyində Günəş kimi işıq saçırdı.

Gündən-günə güclənən bu ictimai-siyasi poseslərin qarşısını almaq üçün mühafizəkar monarxistlər müxtəlif cəhdlər və güzəştlər etsə də hadisələr azadlıq və reformaların qaçılmaz olduğunu təsdiqləyirdi. İmperiya ərazisində milli münaqişələrin yaradılması, Dumanın təsisi bu istiqamətdə atılan addımlardan idi. Belə bir vaxtda Ömər Faiq Nemanzadə yazırdı: "Müstəbid hökumətin, keyfı idarənin, zalimanə üsulun ən böyük düşməni ədəbiyyatdır. Ədəbiyyat olan yerdə istibdad, istibdad olan yerdə ədəbiyyat yaşayamaz" [4].

O, vəziyyətdən istifadənin vacibliyini bədii-publisistik dillə ifadə edirdi. Onun ədəbı-tənqidi yazıları və analitik məqalələrində Rusiya imperiyası hüdudlarında yaşayanların tarixi taleyi və müasir yaşamı, ictimai-siyasi arzuları vahid müstəvidə təhlil olunur, mövcud vəziyyətdən çıxış yolu isə mütləq azadlıqda görülürdü.

Şərq xalqlarının azadlıq hərəkatı XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi fıkrinin xüsusi diqqət yetirdiyi ən mühüm məsələlərdən biri idi. Ömər Faiq də Şərq ölkələrində başlanan milli-azadlıq hərəkatını alqışlamış, əsərlərinin mühüm bir hissəsini bu məsələyə həsr etmişdir [1].

Ömər Faiq 1905-ci il inqilabı zamanı baş verən hadisələri diqqətlə izləyir, çarizmin əl atdığı siyasi tədbir və hiylələri qorxmadan ifşa edirdi. Bu cəhətdən onun "Dəryadan qətrə" adlı məqaləsindən çıxan məna belədir ki, hökumət dərya vəd edir, lakin o dəryadan bir qətrəni belə mərhəmət eləmək istəmir. Qna görə də mütləqiyyətdən mərhəmət gözləmək nəinki mənasızdır, hətta zərərlidir. (5)

Dünyanın dəyişmək və təzələnmək iddiasının gücləndiyini hər bir millətin həyatında müşahidə edən Ömər Faiq Nemanzadə Qafqaz müsəlmanlarının "qədim idarəyi-hökuməti kor-koranə" müdafiə etmələrinə qarşı çıxır, vətəni, cəmiyyətini, millətini deyil, yalnız özünün şəxsi maraqlarını düşünənləri ifşa edirdi.

Dünyanın mutərəqqı xalqlarının tarixi təcrübəsini, uğur və itkilərini öyrənən, təhlil edib müasirlərinə çatdıran Ömər Faiq Nemanzadə hələ İstanbul universitetində tələbə olarkən "Gənc türklər"lə yaxınlıq edir, Fransa, İran, İtaliya, Almaniya və s. ölkələrin azadlıq uğrunda mübarizəsi tarixini örnək bilirdi.

İran, Rusiya və Türkiyə hadisələrini Ömər Faiq Nemanzadə ona görə yaxından müşahidə və təhlil edirdi ki, müasirlərin mövcud vəziyyətin tarixi səbəblərini, ondan çıxış yolunu ətraflı izah edə bilsin.

Azərbaycan çevrəsindəki ölkələrin ictimai-siyasi həyat və iş təcrübəsini örnək bilən publisist "Şərqi-Rus", "Molla Nəsrəddin" kimi nüfuzlu qəzet və jurnallarda hər bir məqalə və mülahizəsində "Xalq və millətin özünüdərk problemini, özünə tənqidi münasibət qabiliyyətini ön planda saxlayır, qədim türk yazılı abidələrində deyildiyi kimi «özünə qayıt, özünə qayıdanda böyük olursan" - özünü dərk edəndə güclü olursan prinsipinə əməl edir, "seyrə balonlarla çıxan əcnəbi"lər yanında utanmamaq mövcud zamanın çağırışlarına cavab verməyi, uyğun gəlməyi vacib bilirdi. Bu çağırışlar şübhəsiz ki, yeni zamanın maarifçiliyi, texnoloji uğurları, ictimai-siyasi hərəkatları, sosial demokratizmi və s. idi.

"Əkinçi"də "Elmi-əbdanə və elmi-ədyanə bir nəzər" rubrikası ilə gündəmə gələn movzular sonralar yalnız maarif müstəvisində müzakirə olunmur, həm də siyasi fikir adamları tərəfindən diqqət mərkəzində saxlanılır.

Tarixi təcrübəni və müasir elmi axtarışları vəhdətdə götürən, dini elmlərlə təbiət elmlərinin sintezini vacib bilən Ömər Faiq Nemanzadə öz dövrünün ictimai fikir və elmi səviyyəsindən çıxış edir, ehkamçı düşüncəni ictimai inkişafa böyük maneə sayır.

Həmin mövqedə dayandığına görədir ki, Ömər Faiq Nemanzadə milli ictimai şüurda güclənən "üsuli-cədid"-təcəddüd hərəkatına bütün fəaliyyəti ilə dayaq olur, bu işdə yalnız elm və sənət, habelə din adamlarının deyil, daha çox məktəb və müəllimlərin iş görəcəyini vurğulayırdı.

Azərbaycanda təhsilin, elmin qayğılarını yaşayan Ömər Faiq Nemanzadənin nəzərə çatdırdığı elmlər əslində cəmiyyətin arzuladığı ehtiyac gördüyü ictimai faydalı elmlər idi ki, XX əsrin əvvəllərində onları mənimsəmək çətinliklə də olsa, mümkün oldu. Məhz həmin təhsil və maarifçilik istiqamətində atılan addımlar Azərbaycanda yeni elmli və informasiyalı cəmiyyət yaratmağa əsaslı şərait yarada bildi. Bu addımların atılmasında "Açıq söz" qəzeti və açıqsözçülər, o cümlədən Ömər Faiq Nemanzadə mühüm xidmətlər göstərə bildi və müstəqil Azərbaycanın, Şərqdə ilk demokratik cümhuriyyətin qurulmasına nail oldular.

Cəmiyyət inkişaf etmədən yaşaya bilməz. O dəyişməyə, yeniləşməyə məhkumdur. Zaman keçdikcə bu yeniləşmə bir tayfanın, bir xalqın, bir. millətin arzu və istəyincə deyil, dünyada gedən proseslərin təsiri ilə nizamlanır. Qəribə burasıdır ki, bəşər tarixinin müəyyən mərhələlərində bu təsir dünyanın bu və ya digər regionunun adı ilə bağlı olub. Orta əsrlərin son dövrlərinə təsadüf etmiş Avropadakı intibahın daha böyük təsir güçü olmuş, ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni dəyişikliklər öz məhsuldarlıqları ilə fərqlənmişlər.

Dünyanın ziyalı adamları mətbuatın yaranışını, inkişafını həmişə alqışlayıb və bu gün də alqışlamaqdadırlar. Təsadüfü deyil ki, demokratik mətbuatı və digər informasiya kanallarının mövcudluğunu müasir cəmiyyətin ən ciddi atributlarından





biri hesab edirlər. Ona görə də mətbuatımızın fəal yaradıcılarından olan Ömər Faiq Nemanzadənin bir əsr bundan qabaq dediyi "mətbuatı olmayan millətin mövcudiyyəti, istiqbalı qətiyyən yoxdur. Mətbuatı olmayan millətin nə məhəbbəti-vətəniyyəsi, nə qeyrəti-milliyyə nə də idareyi-məşrutəsi ola bilər" – sözləri bu gün daha müasir səslənir. Onun fikrincə "millətlərin dərəceyi-tərəqqiləri məhz bir şeylə ölçülür ki, o da ancaq mətbuatlarıdır... [6].

Ömər Faiq Nemanzadə Azərbaycan ictimai fikrinə görkəmli filosof, gözəl publisist, tanınmış ictimai xadim və fədakar insan kimi daxil olmuşdur. Onun fəaliyyətində elə bir nöqtə, elə bir məqam tapmaq olmaz ki, onu təmsil etdiyi xalqın taleyindən, arzu və istəklərindən kənarda təsəvvür etmək mümkün olsun. Şəxsi hisslərini Vətənin xöşbəxtliyinə qurban verməyi bacaran bu şəxsin həyatında baş verən saysız-hesabsız faktlara diqqət yetirmək kifayətdir ki, onun kimliyini müəyyən edəsən. Azərbaycanın dərdlərinə, problemlərinə daha ciddı yanaşıb. Onların həlli yolları barədə daha məqsədəuyğun təkliflər irəli sürüb. Bir jurnalistika məktəbi kimi burada qarşıya qoyulan məqsədə sədaqət, işə məsuliyyət, oxucuya, müəllifə hörmət məsələləri daha böyük ustalıqla, dəqiqliklə, həssaslıqla yerinə yetirilib.

Ömər Faiqin misilsiz xidmətləri sırasında bir cəhəti xüsusi qeyd etmək lazımdır. Onun sadə, anlaşıqlı dili, uslubu Azərbaycan ədəbi dilinin inkişafında xüsusi mərhələ təşkil edir. Mübaliğəsiz demək olar ki, publisistikası öz dövrü üçün ədəbi dil nümunəsi yaratmışdı.

Ömər Faiq publisistikasının müasirliyi bu gün də hiss olunur. Bu müasirlik bu gün də bizim hisslərimizə toxunur, şüurumuza qida verir, bizi düşündürür və fəallığa dəvət edir.

**Nəticə**

Ömər Faiq Nemanzadə yaradıcılığında elə bir mühüm hadisəni tapmaq olmaz ki, o, bunları publisistikasında əks etdirməsin. Müəllif öz yaradıcılığında elmə, tərəqqiyə sahib olmağa çağırır, elmin insan tərbiyəsində böyük rol oynadığını bildirirdi. Bu nəticəyə gəlmək olur ki, heç vaxt aktuallığını itirməyən cəmiyyətin, dövrün haqsızlıqları ilə barışa bilməyən, ömrü boyu xalqın azadlığı uğrunda mübarizə aparan dahi Ömər Faiq yaradıcılığı gənclərimizin milli ruhda tərbiyə olunmasında bir məktəbdir.

**ƏDƏBİYYAT**

1. *Qurbanov, Şamil. Nemanzadə Ömər Faiq / Rəyçi A.Zamanov; redaktoru E.Fərruxzadə. - Bakı: Gənclik, 1992. - 208 s.*
2. *"İrşad" qəzeti, 1906, 3 mart*
3. *"Azərbaycan" qəzeti, № 327 1918, 21 noyabr*
4. *"Molla Nəsrəddin" jurnalı, 1911, № 3*
5. *"Şərqi Rus" qəzeti, 1904, 2 sentyabr*
6. *Nemanzadə, Ömər Faiq. Seçilmiş əsərləri / Tərtib edəni, özn söz və izahların müəllifi Şamil Qurbanov. - Bakı: Şərq-Qərb, 2005. - 352 s.*